**Azərbaycan Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dillər Universiteti**

ADU-nun Elmi Şurasının 4 noyabr 2024-cü il tarixli Pr. №40 qərarı

# Təhsil Proqramlarının Monitorinqi Strategiyası

**Bakı- 2024**

ilə təsdiq olunmuşdur

**Tərtib edənlər:**

**Tədris məsələləri üzrə prorektor:** v.i.e, dos. Şəfəq İsmayıl qızı Şahməmmədova

**Keyfiyyətin təminatı və monitorinq şöbəsinin müdiri:** dos.Fatma Nazim qızı Qurbanzadə

**Keyfiyyətin təminatı və monitorinq şöbəsinin mütəxəssisi:** Yasəmən Sədi qızı Əliyeva

# Mündəricat


1. Ümumi müddəalar ........................................................ 4
2. Təhsil Proqramlarının Monitorinqi: Əsas məqsəd .............. 5
3. Azərbaycan Dillər Universitetində Təhsil proqramlarının monitorinqi strategiyasının tətbiqi........................................... 6
3.1. Azərbaycan Dillər Universitetinin misiyası ...................... 6
3.2 Təhsil proqramları ......................................................... 7
3.3. ADU-da təhsil proqramları .............................................. 8
4. Təhsil proqramlarının monitorinqi strategiyası .................... 10
4.1. Azərbaycan Dillər Universitetdində Təhsil proqramlarının əsas prinsipləri: ....................................... 10
4.2. Azərbaycan Dillər Universitetdində Təhsil proqramlarının əsas iştirakçıları .......................................................................... 11
5. Təhsil proqramının nəticələrinin müşahidəsi ....................... 12
5.1.Qiymətləndirmə meyarları ................................................ 12
5.2. Mütəmadi Qiymətləndirmə və Geribildirim (Feedback) . 13
5.3. Tədrisin müasir innovativ tələbələrə uyğunluğu (Tədrisin elektron idarə olunması) ................................................... 14
6. Təhsil proqramının illik qiymətləndirilməsi.......................... 14
7. Təhsil proqramlarının monitorinqi strategiyasının illik fəaliyyət planı ............................................................................ 15
8. Nəticə ...................................................................................... 16

# 1. Ümumi müddəalar

Təhsil proqramlarının monitorinqi strategiyasının (bundan sonra strategiya) hazırlanması, ali təhsil müəssisələrinin tədris keyfiyyətini artırmaq və proqramların məqsəd və təlim nəticələrinə uyğunluğunu təmin etmək məqsədilə həyata keçirilən bir prosessdir.

Azərbaycan Dillər Universiteti özünün dil, mədəniyyət, tərcümə, beynəlxalq münasibətlər və digər sahələrdəki proqramları ilə yerli və beynəlxalq miqyasda tanınan ali təhsil müəssisəsidir. Ali təhsil müəssisəsinin təhsil proqramlarının daim inkişafı, təhsilalanların əmək bazarının tələblərinə uyğunluğunun təmin edilməsi və tədris keyfiyyətinin artırılması məqsədilə effektiv monitorinq sisteminin tətbiq edilməsi əsas prioritet istiqamətlərdən biridir.

Azərbaycan Dillər Universiteti üçün təhsil proqramlarının monitorinqi strategiyasının əsas hədəfi, təhsil proqramlarının mütəmadi olaraq qiymətləndirilməsi, tələbə məmnuniyyətinin ölçülməsi, proqramların inkişaf etdirilməsi və beynəlxalq akkreditasiya tələblərinə uyğunluğunun təmin edilməsidir.

## 2. Təhsil Proqramlarının Monitorinqi: Əsas məqsəd

Azərbaycan Dillər Universiteti üçün təhsil proqramlarının monitorinqi strategiyasının əsas məqsədi Avropada ali təhsil sahəsində keyfiyyətin təminatı ilə məşğul olan ən nüfuzlu təşkilatlardan olan ENQA-nın (European Association for Quality Assurance in Higher Education) təhsil proqramlarının monitorinqində əsas götürdüyü prinsiplərə əsaslanır.

Təhsil proqramlarının hər biri konkret məqsəd və nəticələrə xidmət etməlidir. Bu nəticələr tələbənin həm nəzəri bilikləri, həm də praktik bacarıqları inkişaf etdirməlidir.  ADU-da bu prinsipin tətbiqi üçün hər bir proqramın nəticə və hədəfləri müəyyən edilməli və tədris prosesinin sonunda tələbənin əldə etməli olduğu bacarıqlar aydın şəkildə təsbit olunmalıdır.

Tədris proqramları tələbələrin gözlənilən nəticələrə çatıb-çatmadığını qiymətləndirmək üçün mütəmadi olaraq qiymətləndirilməlidir. Bunun üçün, hər semestrdə tələbələrin bilik və bacarıqlarını ölçmək məqsədilə testlər, yazılı və şifahi imtahanlar, praktiki layihələr və digər qiymətləndirmə vasitələri tətbiq edilə bilər.

Təhsil proqramları, tələbələrdən, müəllimlərdən və iş dünyasından müntəzəm geribildirim alınmaqla qiymətləndirilməlidir. Tələbələrin dərslər və müəllimlər haqqında fikirlərini toplamaq üçün rəy anketləri tətbiq edilə bilər. Eyni zamanda, iş dünyasından, xüsusən dil və tərcümə sahəsində çalışan peşəkarlarla əlaqələr qurulmalı, onların Azərbaycan Dillər Universitetinin məzunları ilə bağlı fikirləri alınmalıdır.

## 3. Azərbaycan Dillər Universitetində Təhsil proqramlarının monitorinqi strategiyasının tətbiqi

### 3.1. Azərbaycan Dillər Universitetinin misiyası

Azərbaycan Dillər Universiteti, dil və mədəniyyət sahələrində təhsil verən, yüksək akademik nüfuza malik ali təhsil müəssisəsidir. ADU-nun missiyası, yüksək ixtisaslı dilçi, tərcüməçi, filololoq, jurnalist, diplomat, pedaqoq və digər mütəxəssislər yetişdirməkdir. Təhsil proqramları dilin tədrisi, mədəniyyətlərarası kommunikasiya, tərcümə, filologiya və digər sahələr üzrə geniş spektrə malikdir.

Azərbaycan Dillər Universitetinin 2021-2026-cı illəri əhatə edən Strateji inkişaf planında qeyd olunur ki, Ali təhsil

müəssisəsinin əsas missiyası : “Azərbaycan və digər ölkələrdən olan tələbələri müasir tədqiqatlara əsaslanaraq innovativ təlim-tədris texnologiyalarından istifadə etməklə peşəkar mütəxəssislər kimi formalaşdırmaq, həmçinin yüksək potensiala, tənqidi təfəkkür və analitik zəkaya, müstəqil şəkildə müxtəlif tədqiqatlar aparmaq bacarığına və ən əsası vətənpərvərlik hisslərinə, azərbaycançılıq ideologiyasına malik işgüzar gənclər yetişdirməkdir”. ADU-nun Azərbaycan Respublikası ərazisində və beynəlxalq miqyasda rəqabətədayanıqlığını və dünyanın aparıcı universitetlərinin siyahısına daxil olmasını təmin etmək isə əsas vizyonu təşkil edir. Keçid

## 3.2 Təhsil proqramları

Azərbaycan Dillər Universitetində Təhsil proqramlarının əsas məqsədi müasir tələblərə uyğun həm yerli, həm də beynəlxalq miqyasda iş dünyasında uğur qazanan məzunlar yetişdirməkdir. Təhsil proqramlarının effektivliyini və keyfiyyətini artırmaq, beynəlxalq standartlara uyğunluğunu təmin etmək üçün Azərbaycan Dillər Universitetinin qarşıya qoyduğu əsas hədəflər bunlardır:

- Proqramların müasir tələblərə uyğunluğunu qiymətləndirmək;
- Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət etmək;
- Proqramların beynəlxalq standartlara uyğunlaşdırılmasına dəstək vermək;
- Tələbə və məzun məmnuniyyətini ölçmək;
- Professor- müəllim heyətinin peşəkar inkişafını təmin etmək;
- Əmək bazarının müasir tələblərinə uyğun kadr hazırlığına töhfə vermək.

## 3.3. ADU-da təhsil proqramları

ADU-da təhsil proqramları aşağıdakı sahələrdə təklif olunur:

**Bakalavriat səviyyəsi üzrə**

- **Humanitar və sosial ixtisaslar qrupu:**

1. Beynəlxalq münasibətlər
2. Filologiya
3. Tərcümə
4. Jurnalistika
5. Regionşünaslıq

- **Təhsil ixtisasları:**

1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi

2. Dil və ədəbiyyat müəllimliyi
3. İbtidai sinif müəllimliyi
4. Məktəbəqədər təhsil
5. Təhsildə sosial-psixoloji xidmət
6. Xarici dil müəllimliyi (dillər üzrə)

**Magistratura səviyyəsi üzrə**

- **Humanitar və sosial ixtisaslar qrupu:**

1. Filologiya
2. Ədəbiyyatşünaslıq (ölkələr və sahələr üzrə)
3. Dilşünaslıq (dillər və sahələr üzrə)
4. Tərcümə
5. Tərcümə (dillər üzrə)
6. Sinxron tərcümə (dillər üzrə)
7. Jurnalistika
8. Regionşünaslıq (regionlar üzrə)
9. Ölkəşünaslıq (ölkələr üzrə)
10. Beynəlxalq Münasibətlər
11. Menecment
12. Biznesin idarə edilməsi

- **Təhsil ixtisasları:**

1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
2. Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)
3. Dil və ədəbiyyatın tədrisi metodikası və metodologiyası

4. Xarici dil müəllimliyi  (dillər üzrə)
5. Xarici dilin tədrisi metodikası və metodologiyası
6. İbtidai sinif müəllimliyi
7. Korreksiyaedici təlim
8. Məktəbəqədər təlim və tərbiyə
9. Təhsildə sosial-psixoloji xidmət
10. Pedaqogika

# 4. Təhsil proqramlarının monitorinqi strategiyası

## 4.1. Azərbaycan Dillər Universitetdində Təhsil proqramlarının əsas prinsipləri:

- **Şəffaflıq:** Monitorinq prosesləri, reydlər və nəticələri bütün maraqlı tərəflər üçün açıq olmalıdır.
- **Davamlılıq:** Monitorinq müntəzəm və sistemli şəkildə aparılmalıdır.
- **Əməkdaşlıq:** Fakültələr, kafedralar və digər struktur bölmələr arasında effektiv əməkdaşlıq təmin edilməlidir.
- **İnnovasiya:** Yeni texnologiyalar və metodologiyalar monitorinq prosesinə inteqrasiya olunmalıdır.
- **Hesabatlılıq:** Aparılan monitorinq və təhlillərin nəticələri fakültə elmi şuralarında, Universitet üzrə elmi-metodik şurada, Universitetin Elmi Şurasında müzakirə olunub, nəticələr maraqlı tərəflərə elan olunmalıdır.

- **İnteqrasiya:** Təhsil proqramlarının məqsədi proqramın ümumdünya təhsil məkanına inteqrasiyasını təşkil etməkdir.

## 4.2. Azərbaycan Dillər Universitetdində Təhsil proqramlarının əsas iştirakçıları

- **Fakültələr və kafedralar:** Proqramların icrası və ilkin qiymətləndirmə prosesinin iştirakçıları;
- **Təhsilalanlar:**. Bilik, bacarıq və vərdişləri mənimsənilməsi prosesində iştirak edən tərəf - Təhsil proqramının əsas iştirakçıları;
- **Təhsilverənlər:** Bilik, bacarıq və vərdişləri mənimsənilməsi prosesini idarə edən tərəf- Təhsil proqramının əsas iştirakçıları;
- **Əmək bazarı nümayəndələri:** Proqramların əmək bazarına uyğunluğunun qiymətləndirilməsi üzrə nümayəndələr;
- **Əlavə təhsil, təcrübə və karyera şöbəsi :** Əks-əlaqə və məmnuniyyət göstəricilərini təmin mütəxəssislər;
- **Keyfiyyətin təminatı və monitorinq şöbəsi:** Monitorinq prosesinin koordinatoru;

# 5. Təhsil proqramının nəticələrinin müşahidəsi

## 5.1. Qiymətləndirmə meyarları

1. **Sillabusların monitorinq və qiymətləndirilməsi:** Sillabusda öz əksini tapan fənnin məqsəd və təlim nəticələri Təhsil proqramında qeyd olunan nəticələrə uyğunluğunun müəyyənləşdirilməsi.
2. **Fənn proqramlarının qiymətləndirilməsi** : Fənn proqramında öz əksini tapan fənnin məqsəd və təlim nəticələri Təhsil proqramında qeyd olunan nəticələrə uyğunluğunun müəyyənləşdirilməsi.
3. **Aralıq və yekun qiymətləndirilmə**: Proqramların məqsəd və nəticələri mütəmadi olaraq (aralıq imtahanlar (mid-term) və yekun imtahanlar) qiymətləndirilir. Bu qiymətləndirmə tələbələrin təhsil proqramından əldə etdiyi biliklər və bacarıqlara əsaslanır.
4. **Tələbə performansının qiymətləndirilməsi**: Proqramın effektivliyini ölçmək üçün, hər bir tələbənin dərs və praktiki layihələr üzrə performansı izlənilir. Bu məqsədlə vahid qiymətləndirmə meyarları təyin olunur.
5. **Əmək bazarı ilə əlaqələr**: Təhsil proqramlarının əmək bazarının tələblərinə uyğun olub-olmaması qiymətləndirilir. Bu istiqamətdə, əmək bazarı nümayəndələri və işəgötürənlərlə mütəmadi görüşlər və təhlillər aparılır.

6. **Professor-müəllim heyətinin akademik və pedaqoji fəaliyyətinin qiymətləndirilməsi:** Təhsil proqramı üzrə qiymətləndirmə müəllimlərin peşəkar inkişafını, tədris effektivliyini və universitetin strateji məqsədlərinə töhfəsini müəyyən etməyə xidmət edir. Nəticələr əsasında verilən tövsiyələr Təlim və metodologiya mərkəzinə təqdim olunur. Müəllimlərin akademik ehtiyaclarına görə təlim proqramı hazırlanır.

## 5.2. Mütəmadi Qiymətləndirmə və Geribildirim (Feedback)

Təhsil proqramları mütəmadi olaraq qiymətləndirilir və təhlil edilir. Bunun üçün aşağıdakı metodlar tətbiq olunur:

- **Tələbə anketləri, sorğular:** Tələbələrin dərs proqramı və müəllimlərlə bağlı fikirləri mütəmadi olaraq toplanılır.
- **Professor-müəllim heyəti və əmək bazarı nümayəndələrindən alınan geribildirim**: Müəllimlər və əmək bazarından alınan geribildirimlər əsasında proqramların inkişafı istiqamətində dəyişikliklər edilir.

### 5.3. Tədrisin müasir innovativ tələbələrə uyğunluğu (Tədrisin elektron idarə olunması)

Müasir texnologiyaların və tədris metodlarının tətbiqi, təhsil proqramlarının monitorinqi üçün vacibdir. Bu məqsədlə:

- **Rəqəmsal platformalar**: Dərs materiallarının və qiymətləndirmələrin onlayn platformalar vasitəsilə mütəmadi olaraq təqdim edilməsi.
- **İnteraktiv tədris metodları**: Müasir tədris metodları (flip-teaching, layihə əsaslı tədris, dərslərin hibdrid keçirilməsi ) tətbiq edilir.

## 6. Təhsil proqramının illik qiymətləndirilməsi

Fakültələr tərəfindən hazırlanmış özünütəhlil hesabatı tədris ilinin may ayında Keyfiyyət təminatı və monitorinq şöbəsinə gğndərilir. 1 (bir) ay müddətində təhlil olunan hesabatdan irəli gələn məsələlərin müzakirəsi və sahə baxışları tədris ilinin iyul ayında baş tutur. Nəticələr növbəti tədris ilinin sentyabr-oktyabr aylarında universitetin Elmi şurasında müzakirə olunur və nəticələr müvafiq qurumlara elan olunur.

# 7. Təhsil proqramlarının monitorinqi strategiyasının illik fəaliyyət planı

**Cədvəl 1.**

| № | Fəaliyyət planı | İcraçı | Vaxt | Qeyd |
|---|---|---|---|---|
| 1 | Proqramların illik qiymətləndirilməsi üçün meyarların hazırlanması | Keyfiyyətin təminatı və monitorinq şöbəsi | 2024-cü ilin I rübü | Beynəlxalq standartlara uyğun |
| 2 | Tələbə və məzun məmnuniyyəti sorğularının keçirilməsi | Keyfiyyətin təminatı və monitorinq şöbəsi | Hər tədris ilinin sonunda | Əks-əlaqə üçün əsas vasitə |
| 3 | Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının yaradılması | Fakültələr və kafedralar | Hər tədris ilinin sonunda | Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsi |
| 4 | Təhsil proqramlarının illik özünü-qiymətləndirmə hesabatlarının hazırlanması | Fakültələr və kafedralar | Hər tədris ilinin sonunda (may ayında) | Təhsil proqramının ilkin qiymətləndirilməsi və məlumatların dəyərləndirilməsi |
| 5 | Əmək bazarı nümayəndələri ilə görüşlərin təşkili | Əlavə təhsil, təcrübə və karyera şöbəsi, fakültələr | İldə iki dəfə | Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi |
| 6 | Professor- müəllim heyəti üçün | Keyfiyyətin təminatı və | İldə iki dəfə | Tədris prosesinin əsas aparıcı |

| | | | | |
|---|---|---|---|---|
| | peşəkar təlimlərinin təşkili | monitorinq şöbəsi; İnsan resursları şöbəsi | | qüvvəsinin təkmilləşdirilməsi |
| 7 | Monitorinq nəticələrinin hesabatlarının hazırlanması və təqdimatı | Keyfiyyətin təminatı və monitorinq şöbəsi | Hər tədris ilinin sonunda, Təqdimatın verilməsi növbəti tədris ilinin əvvəlində | Şəffaflığın təmin edilməsi, hesabatlılığın əlçatanlığı |

## 8. Nəticə

Azərbaycan Dillər Universiteti üçün hazırlanmış təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı, universitetin tədris keyfiyyətini artırmağa və beynəlxalq təhsil standartlarına uyğunluğunu təmin etməyə yönəldilmişdir. Bu strategiya və fəaliyyət planı, ADU-nun gələcəkdəki uğurlarını təmin etməyə və universitetin təhsil sahəsində nüfuzunu artırmağa xidmət edir.